AZƏRBAYCAN RESPUBLİKASININ HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİ

| | |
|---|---|
| Aktın növü | AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ KOLLEGİYASININ QƏRARI |
| Qəbul edildiyi tarix | 07.09.2016 |
| Qeydiyyat nömrəsi | 1617050000011400 |
| Adı | Vergi inzibatçılığının təkmilləşdirilməsi məqsədi ilə bir sıra normativ hüquqi aktların təsdiq edilməsi haqqında |
| Rəsmi dərc edildiyi mənbə | |
| Qüvvəyə minmə tarixi | 23.09.2016 |
| Azərbaycan Respublikasının Vahid hüquqi təsnifatı üzrə indeks kodu | 090.030.000 |
| Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi | 15201609071400 |
| Hüquqi aktın Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix | 22.09.2016 |

"2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri"nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikasının Prezidentinin 2016-cı il 4 avqust tarixli 2257 nömrəli Sərəncamı ilə verilmiş tapşırıqların icrasının təmin edilməsi məqsədilə, Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 29 mart tarixli 454 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Vergilər Nazirliyi haqqında Əsasnamə"nin 17-ci hissəsini rəhbər tutaraq Azərbaycan Respublikası Vergilər Nazirliyinin Kollegiyası

QƏRARA ALIR:

1. "Bəyannamələrin kameral vergi yoxlamalarının aparılmasına dair Qaydalar" təsdiq edilsin (1 nömrəli əlavə).

2. "Səyyar vergi yoxlamasının keçirilməsi Qaydaları" təsdiq edilsin (2 nömrəli əlavə).

3. "Nümunəvi vergi ödəyicisinin müəyyən edilməsi və imtiyazların verilməsi Qaydaları" təsdiq edilsin (3 nömrəli əlavə).

4. "Elektron auditin keçirilməsi Qaydaları" təsdiq edilsin (4 nömrəli əlavə).

5. “Vergilər Nazirliyinin Çağrı Mərkəzi tərəfindən əlaqə yaradılaraq vergi ödəyicilərinin məlumatlandırılması (Outbound Call Centre) Qaydaları” təsdiq edilsin (5 nömrəli əlavə).

6. “Təsərrüfat obyektləri və fəaliyyət sahələri üzrə risklərin qiymətləndirilməsi Metodologiyası” təsdiq edilsin (6 nömrəli əlavə).

7. “Borclu vergi ödəyiciləri üzrə risk qruplarının müəyyən edilməsi və borcların, faizlərin və maliyyə sanksiyalarının dövlət büdcəsinə alınması sahəsində vergi ödəyicilərinin maarifləndirilməsi Qaydaları” təsdiq edilsin (7 nömrəli əlavə).

8. Azərbaycan Respublikası Vergilər Nazirliyinin Kollegiyasının 24.12.2012-ci il tarixli 1217050000004800 nömrəli Qərarında aşağıdakı dəyişikliklər edilsin:

8.1. 16 nömrəli “Fiziki şəxsin fəaliyyətinin onlayn dayandırılması” elektron xidməti üzrə inzibati reqlament yeni redaksiyada verilsin (əlavə olunur);

8.2. 17 nömrəli “Hüquqi şəxsin fəaliyyətinin onlayn dayandırılması” elektron xidməti üzrə inzibati reqlament yeni redaksiyada verilsin (əlavə olunur);

8.3. 20 nömrəli “Fiziki şəxsin fəaliyyətinin onlayn bərpası” elektron xidməti üzrə inzibati reqlament yeni redaksiyada verilsin (əlavə olunur);

8.4. 21 nömrəli “Hüquqi şəxsin fəaliyyətinin onlayn bərpası” elektron xidməti üzrə inzibati reqlament yeni redaksiyada verilsin (əlavə olunur).

9. Azərbaycan Respublikası Vergilər Nazirliyinin Hüquq baş idarəsinə tapşırılsın ki, bu Qərarın Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün 3 gün müddətində Azərbaycan Respublikası Ədliyyə Nazirliyinə göndərilməsini təmin etsin.

10. Azərbaycan Respublikası Vergilər Nazirliyinin Vergi ödəyicilərinə xidmət baş idarəsinə tapşırılsın ki, bu Qərarla təsdiq edilmiş normativ hüquqi aktların Azərbaycan Respublikası Vergilər Nazirliyinin rəsmi internet səhifəsində yerləşdirilməsini təmin etsin.

11. Bu Kollegiya Qərarının 4-cü hissəsi ilə təsdiq edilmiş “Elektron auditin keçirilməsi Qaydaları” 2017-ci il yanvarın 1-dən qüvvəyə minir.

Vergilər naziri,
1-ci dərəcəli dövlət vergi xidməti müşaviri — Fazil Məmmədov

Azərbaycan Respublikası Vergilər Nazirliyinin Kollegiyasının 7 sentyabr 2016-cı il tarixli 1617050000011400 nömrəli qərarı ilə təsdiq edilmişdir.

Əlavə - 21

“Hüquqi şəxsin fəaliyyətinin onlayn bərpası” elektron xidməti üzrə inzibati reqlament

1. Ümumi müddəalar

1.1. Elektron xidmətin adı: Hüquqi şəxsin fəaliyyətinin onlayn bərpası.

1.2. Elektron xidmətin məzmunu: Bu xidmət fəaliyyətini dayandırmış hüquqi şəxs olan vergi ödəyicilərinin (bundan sonra – istifadəçi) Vergilər Nazirliyinin İnternet Vergi İdarəsi Portalı vasitəsi ilə və ya Vergilər Nazirliyinin Çağrı Mərkəzi (bundan sonra – Çağrı Mərkəzi) vasitəsi ilə fəaliyyətinin bərpasını (aktivləşdirilməsini) əhatə edir.

1.3. Elektron xidmətin göstərilməsinin hüquqi əsası:

1.3.1. Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 16.3-cü, 16.5-ci, 24.0.2-ci və 24.0.6-cı maddələri;

1.3.2. “Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 23.05.2011-ci il tarixli 429 nömrəli Fərmanının 2-ci və 2-1-ci hissələri;

1.3.3. “2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri və vergi inzibatçılığının təkmilləşdirilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 04.08.2016-cı il tarixli 2257 nömrəli Sərəncamının 2.11-ci bəndi;

1.3.4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24.11.2011-ci il tarixli 191 nömrəli Qərarı ilə təsdiq edilmiş “Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları”, eləcə də "Elektron xidmət növlərinin Siyahısı"nın 7.28-ci bəndi.

1.4. Elektron xidməti göstərən dövlət qurumunun adı: Azərbaycan Respublikasının Vergilər Nazirliyi.

1.5. Elektron xidmətin digər icraçıları: Yoxdur.

1.6. Elektron xidmətin avtomatlaşdırılma səviyyəsi:

1.6.1. İnternet Vergi İdarəsi Portalı vasitəsi ilə göstərilən xidmət tam avtomatlaşdırılmışdır;

1.6.2. Çağrı Mərkəzi vasitəsi ilə göstərilən xidmət qismən avtomatlaşdırılmışdır.

1.7. Elektron xidmətin icra müddəti:

1.7.1. Elektron xidmət İnternet Vergi İdarəsi Portalı vasitəsi ilə həyata keçirildikdə elektron xidmətin icra müddəti sorğunun informasiya sistemi tərəfindən emalı müddətindən asılıdır.

1.7.2. Elektron xidmət Çağrı Mərkəzi vasitəsi ilə həyata keçirildikdə elektron xidmətin icra müddəti tələb olunan məlumatların istifadəçinin səlahiyyətli nümayəndəsi tərəfindən təqdim edilməsindən, icraçının (Çağrı Mərkəzinin təmsilçisinin) həmin məlumatları sistemə daxil etməsindən, istifadəçinin səlahiyyətli nümayəndəsinin gücləndirilmiş elektron imza

vasitəsi ilə əməliyyatları təsdiqləməsindən və əməliyyatların informasiya sistemi tərəfindən emalı müddətindən asılı olaraq 5-7 dəqiqədir.

1.8. Elektron xidmətin göstərilməsinin nəticəsi: Hüquqi şəxsin fəaliyyətinin müvəqqəti dayandırılması barədə müraciət öz qüvvəsini itirir və onun fəaliyyəti bərpa olunur (aktivləşdirilir). Elektron xidmət İnternet Vergi İdarəsi Portalı vasitəsi ilə həyata keçirildikdə bu barədə vergi ödəyiciləri üçün ayrıca yaradılmış elektron ünvana onlayn qaydada bildiriş göndərilir. Elektron xidmət Çağrı Mərkəzi vasitəsi ilə həyata keçirildikdə istifadəçinin səlahiyyətli nümayəndəsinin Azərbaycan Respublikasının Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi (bundan sonra - ASXM) tərəfindən verilmiş gücləndirilmiş elektron imzanın bağlı olduğu mobil telefon nömrəsinə (bundan sonra – mobil telefon nömrəsi) SMS, habelə vergi ödəyiciləri üçün ayrıca yaradılmış elektron ünvana onlayn qaydada ərizənin göndərilməsi üzrə əməliyyat tarixçəsi göndərilir.

## 2. Elektron xidmətin göstərilməsinin həyata keçirilməsi

2.1. Elektron xidmətin növü: İnteraktiv.

2.2. Elektron xidmət üzrə ödəniş: Ödənişsiz.

2.3. Elektron xidmətin istifadəçiləri:

2.3.1. Elektron xidmət İnternet Vergi İdarəsi Portalı vasitəsi ilə həyata keçirildikdə Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş qaydada vergi ödəyicisinin eyniləşdirmə nömrəsini (VÖEN) almış və Elektron sənəd mübadiləsi haqqında müqavilə əsasında istifadəçi kodu, parol və şifrə və ya Azərbaycan Respublikasının "Elektron imza və elektron sənəd haqqında" Qanununun müddəalarına əsasən gücləndirilmiş elektron imza əldə etmiş və müraciəti əsasında fəaliyyəti müvəqqəti dayandırılmış hüquqi şəxslər.

2.3.2. Elektron xidmət Çağrı Mərkəzi vasitəsi ilə həyata keçirildikdə Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş qaydada vergi ödəyicisinin eyniləşdirmə nömrəsini (VÖEN) almış və "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikasının Qanununun müddəalarına əsasən ASXM tərəfindən verilən gücləndirilmiş elektron imza əldə etmiş və müraciəti əsasında fəaliyyəti müvəqqəti dayandırılmış hüquqi şəxslər.

2.4. Elektron xidmətin təqdim olunma yeri:

2.4.1. Elektron xidmət İnternet Vergi İdarəsi Portalı vasitəsi ilə həyata keçirildikdə:

1. https://www.e-taxes.gov.az;
2. https://www.e-gov.az;
3. https://www.taxes.gov.az.
4. https://www.dxr.az.

2.4.2. Elektron xidmət Çağrı Mərkəzi vasitəsi ilə həyata keçirildikdə, Çağrı Mərkəzi (195-1).

2.5. Elektron xidmət barədə məlumatlandırma:

2.5.1. https://www.taxes.gov.az;

2.5.2. https://www.e-gov.az;

2.5.3. https://www.e-taxes.gov.az;

2.5.4. https://asanimza.az;

2.5.5. https://www.dxr.az;

2.5.6. Vergilər Nazirliyinin struktur vahid və bölmələri;

2.5.7. Vergi ödəyicilərinə xidmət mərkəzləri;

2.5.8. Çağrı Mərkəzi (195-1).

2.6. Elektron xidmətin göstərilməsi üçün tələb olunan sənədlər və onların təqdim olunma forması: Bu xidmətin göstərilməsi üçün sənəd tələb olunmur.

2.7. Elektron xidmətin göstərilməsi üçün tələb olunan sənədlər dövlət orqanlarının informasiya ehtiyatında olduqda: Yoxdur

3. Elektron xidmətin göstərilməsi üçün inzibati prosedurlar

3.1. İnteraktiv elektron xidmətlər üçün sorğu:

3.1.1. Sorğunun formalaşdırılması:

3.1.1.1. Elektron xidmət İnternet Vergi İdarəsi Portalı vasitəsi ilə həyata keçirildikdə:

1. İstifadəçinin səlahiyyətli nümayəndəsi Vergilər Nazirliyi tərəfindən verilmiş istifadəçi kodu, parol və şifrə və ya gücləndirilmiş elektron imza vasitəsi ilə İnternet Vergi İdarəsi Portalının "Onlayn kargüzarlıq və E-VHF" bölməsinə daxil olur;

2. İstifadəçinin səlahiyyətli nümayəndəsi "Yeni müraciət" düyməsini sıxır, "Kimə" siyahısından "Vergilər Nazirliyi", "müraciətin növü" siyahısından "Ərizə", "Sənədin növü" siyahısından "Hüquqi şəxsin fəaliyyətinin bərpası"nı seçir və "Qəbul" düyməsini sıxır;

3. İstifadəçinin səlahiyyətli nümayəndəsi açılan ekranda ərizə ("Hüquqi şəxsin fəaliyyətinin bərpası ərizəsi"nin elektron forması) üzrə tələb edilən məlumatları daxil edir;

4. Daxil edilmiş məlumatların yoxlanılması üçün təsdiqləmə ekranı gəlir. İstifadəçinin səlahiyyətli nümayəndəsi məlumatların doğruluğuna əmin olduqda "Qəbul" düyməsini sıxır. Əks halda, imtina etmək üçün "İmtina" düyməsini sıxır.

3.1.1.2. Elektron xidmət Çağrı Mərkəzi vasitəsi ilə həyata keçirildikdə:

1. İstifadəçinin səlahiyyətli nümayəndəsi Çağrı Mərkəzinə (195-1) zəng etməklə müraciət edir;

2. İstifadəçinin səlahiyyətli nümayəndəsi mobil telefon nömrəsini təqdim edir;

3. İstifadəçinin səlahiyyətli nümayəndəsi kimliyinin müəyyənləşdirilməsi məqsədi ilə mobil telefon nömrəsinə gəlmiş SMS-lə tanış olduqdan sonra gücləndirilmiş elektron imza PİN2 kodunu daxil edir;

4. Təqdim edilən məlumatlar əsasında icraçı (Çağrı Mərkəzinin təmsilçisi) tərəfindən "Hüquqi şəxsin fəaliyyətinin bərpası" ərizəsi doldurulur;

5. İstifadəçinin səlahiyyətli nümayəndəsinin mobil telefon nömrəsinə ərizədə qeyd olunan məlumatlar barədə SMS göndərilir;

6. İstifadəçinin səlahiyyətli nümayəndəsi SMS-lə tanış olduqdan sonra yoxlama kodunu təsdiqləyir və gücləndirilmiş elektron imza PİN2 kodunu daxil etməklə SMS vasitəsi ilə göndərilmiş ərizə məlumatlarını imzalayır.

3.1.2. Sorğunun qəbulu:

1. Elektron xidmət İnternet Vergi İdarəsi Portalı vasitəsi ilə həyata keçirildikdə istifadəçinin səlahiyyətli nümayəndəsi ərizənin doğruluğunu təsdiqlədikdən sonra ekrana fəaliyyətin bərpası haqqında "Bildiriş" çıxır, həmin bildirişi çap etmək üçün "Çap", bağlamaq üçün isə "Bağla" düymələrindən biri sıxılır. Eyni zamanda istifadəçinin səlahiyyətli nümayəndəsi "Onlayn kargüzarlıq və E-VHF" bölməsinin "Göndərdiklərim" qovluğundan ərizə və bildirişlə, habelə əməliyyat tarixçəsi ilə tanış ola bilər;

2. Elektron xidmət Çağrı Mərkəzi vasitəsi ilə həyata keçirildikdə əməliyyat başa çatdıqdan sonra istifadəçinin səlahiyyətli nümayəndəsinin mobil telefon nömrəsinə fəaliyyətin bərpası barədə SMS və "Onlayn kargüzarlıq və E-VHF" bölməsindəki elektron qutusuna ərizənin göndərilməsi üzrə əməliyyat tarixçəsi göndərilir. İstifadəçinin səlahiyyətli nümayəndəsi "Onlayn kargüzarlıq və E-VHF" bölməsinin "Göndərdiklərim" qovluğundan ərizə və ərizənin göndərilməsi üzrə əməliyyat tarixçəsi ilə tanış ola bilər.

3.2. Elektron xidmətin göstərilməsi və ya imtina edilməsi:

3.2.1. Sorğunun yerinə yetirilməsindən imtina halları:

3.2.1.1. Elektron xidmət İnternet Vergi İdarəsi Portalı vasitəsi ilə həyata keçirildikdə:

1. Fəaliyyətin bərpası barədə daha əvvəl təqdim edilmiş ərizə üzrə məlumatlar Avtomatlaşdırılmış Vergi İnformasiya Sisteminə (bundan sonra - AVİS) daxil edilənədək, yenidən hüquqi şəxsin fəaliyyətinin bərpası ərizəsi göndərildikdə;

2. Hüquqi şəxsin fəaliyyəti aktiv olduğu (dayandırılmadığı) halda.

3.2.1.2. Elektron xidmət Çağrı Mərkəzi vasitəsi ilə həyata keçirildikdə:

1. Müraciət edən şəxsin hüquqi şəxsin səlahiyyətli nümayəndəsi olmadığı müəyyən edildikdə;

2. Fəaliyyətin bərpası barədə daha əvvəl təqdim edilmiş ərizə üzrə məlumatlar AVİS-ə daxil edilənədək, yenidən hüquqi şəxsin fəaliyyətinin bərpası ərizəsinin təqdim edilməsi üçün müraciət edildikdə;

3. Hüquqi şəxsin fəaliyyəti aktiv olduğu (dayandırılmadığı) halda.

4. Müraciət edən şəxs ASXM tərəfindən verilən gücləndirilmiş elektron imzaya sahib olmadıqda;

5. Mobil telefon nömrəsi səhv bildirildikdə və ya həmin nömrə ilə bağlı nasazlıq olduqda;

6. Ərizədə qeyd edilməli olan məlumatlar dəqiq bildirilmədikdə;

7. Müraciət iş vaxtı (həftənin iş günləri, saat 09:00-18:00) edilmədikdə.

3.2.2. Sorğunun qəbulu: İmtinaya əsas olmadıqda hüquqi şəxsin fəaliyyətinin müvəqqəti dayandırılması barədə müraciəti öz qüvvəsini itirməklə onun fəaliyyəti bərpa olunur (aktivləşdirilir) və bu barədə məlumat verilir.

3.3. Sorğunun icrası:

3.3.1. Ardıcıl hər bir inzibati əməliyyat, o cümlədən məsul şəxs haqqında məlumat:

3.3.1.1. Elektron xidmət İnternet Vergi İdarəsi Portalı vasitəsi ilə həyata keçirildikdə:

1. İstifadəçi kodu, şifrə və parol və ya gücləndirilmiş elektron imza əsasında istifadəçinin və ya istifadəçinin səlahiyyətli nümayəndəsinin sistemdə təyin edilməsi (identikləşdirilməsi), məsul şəxs - Vergilər Nazirliyi;

2. Ərizə üzrə tələb olunan məlumatların düzgün daxil edilməsi, məsul şəxs – istifadəçinin səlahiyyətli nümayəndəsi;

3. Hüquqi şəxsin fəaliyyətinin bərpası, məsul şəxs - Vergilər Nazirliyi;

4. Fəaliyyətin bərpası barədə hüquqi şəxsə "Bildiriş"in göndərilməsi, məsul şəxs - Vergilər Nazirliyi;

3.3.1.2. Elektron xidmət Çağrı Mərkəzi vasitəsi ilə həyata keçirildikdə,

1. Mobil telefon nömrə məlumatlarının düzgün təqdim edilməsi, məsul şəxs – istifadəçinin səlahiyyətli nümayəndəsi;

2. Mobil telefon nömrə məlumatlarının sistemdə yoxlanılması, məsul şəxs-Vergilər Nazirliyi;

3. Kimliyin müəyyən olunması və xidmətdən istifadənin təsdiqlənməsi üçün gücləndirilmiş elektron imza PİN2 kodunun daxil edilməsi, məsul şəxs – istifadəçinin səlahiyyətli nümayəndəsi;

4. Ərizə üzrə tələb olunan məlumatların düzgün təqdim edilməsi, məsul şəxs – istifadəçinin səlahiyyətli nümayəndəsi;

5. Təqdim edilmiş məlumatların sistemə daxil edilməsi, məsul şəxs – Vergilər Nazirliyi;

6. Hüquqi şəxsin fəaliyyətinin bərpası məqsədi ilə hazırlanmış ərizə barədə istifadəçinin səlahiyyətli nümayəndəsinin mobil telefon nömrəsinə SMS-in göndərilməsi, məsul şəxs – Vergilər Nazirliyi;

7. Ərizənin vergi orqanına göndərilməsi üçün gücləndirilmiş elektron imza PİN2 kodunu daxil etməklə ərizənin imzalanması, məsul şəxs – istifadəçinin səlahiyyətli nümayəndəsi;

8. Əməliyyat başa çatdıqdan sonra ərizənin göndərilməsi üzrə əməliyyat tarixçəsinin istifadəçinin e-qutusuna (“Onlayn kargüzarlıq” səhifəsinin “Göndərdiklərim” qovluğuna) göndərilməsi, məsul şəxs-Vergilər Nazirliyi.

9. Əməliyyat baş çatdıqdan sonra hüquqi şəxsin fəaliyyətinin bərpası barədə istifadəçinin səlahiyyətli nümayəndəsinin mobil telefon nömrəsinə SMS-in göndərilməsi, məsul şəxs – Vergilər Nazirliyi.

3.3.2. Hər bir inzibati əməliyyatın məzmunu, yerinə yetirilmə müddəti və/və ya maksimal yerinə yetirilmə müddəti:

1. Elektron xidmət İnternet Vergi İdarəsi Portalı vasitəsi ilə həyata keçirildikdə fəaliyyətin bərpası haqqında elektron ərizənin doldurularaq təqdim edilməsi istifadəçinin səlahiyyətli nümayəndəsinin əməliyyatları aparması tezliyindən asılı olaraq yerinə yetirilir. Hüquqi şəxsin fəaliyyətinin bərpası isə müvafiq ərizə göndərildikdən sonra həmin məlumatların informasiya sistemində emalı müddətindən asılı olaraq yerinə yetirilir;

2. Elektron xidmət Çağrı Mərkəzi vasitəsi ilə həyata keçirildikdə fəaliyyətin bərpası haqqında elektron ərizə üzrə tələb olunan məlumatların müraciət edən şəxs tərəfindən təqdim edilməsi, icraçı (Çağrı Mərkəzinin təmsilçisi) tərəfindən həmin məlumatların sistemə daxil edilməsi, məlumatların düzgünlüyünün müraciət etmiş şəxs tərəfindən təsdiq edilməsi tezliyindən asılı olaraq yerinə yetirilir. Hüquqi şəxsin fəaliyyətinin bərpası isə müvafiq ərizə göndərildikdən sonra həmin məlumatların informasiya sistemində emalı müddətindən asılı olaraq yerinə yetirilir. Elektron xidmət üzrə əməliyyatların maksimal yerinə yetirilmə müddəti 5-7 dəqiqədir.

3.3.3. İnzibati əməliyyatda iştirak edən digər dövlət orqanı haqqında məlumat: Yoxdur.

3.3.4. Hər bir inzibati prosedurun nəticəsi və onun verilməsi qaydası:

1. Elektron xidmət İnternet Vergi İdarəsi Portalı vasitəsi ilə həyata keçirildikdə hüquqi şəxsin fəaliyyətinin müvəqqəti dayandırılması barədə müraciət öz qüvvəsini itirir, onun fəaliyyəti bərpa olunur (aktivləşdirilir) və bu barədə vergi ödəyiciləri üçün ayrıca yaradılmış elektron ünvana onlayn qaydada bildiriş göndərilir.

2. Elektron xidmət Çağrı Mərkəzi vasitəsi ilə həyata keçirildikdə hüquqi şəxsin fəaliyyətinin müvəqqəti dayandırılması barədə müraciət öz qüvvəsini itirir, onun fəaliyyəti bərpa olunur (aktivləşdirilir) və istifadəçinin səlahiyyətli nümayəndəsinin mobil telefon nömrəsinə SMS, habelə vergi ödəyiciləri üçün ayrıca yaradılmış elektron ünvana onlayn qaydada ərizənin göndərilməsi üzrə əməliyyat tarixçəsi göndərilir.

3.4. Elektron xidmətin yerinə yetirilməsinə nəzarət:

3.4.1. Nəzarət forması: Elektron xidmətin göstərilməsi zamanı aparılan proseslərə Azərbaycan Respublikasının Vergilər Nazirliyinin proqram təminatı vasitəsi ilə onlayn qaydada və Çağrı Mərkəzi (195-1) vasitəsi ilə nəzarət edilir;

3.4.2. Nəzarət qaydası: Bu prosesdə yaranan hər hansı anlaşılmazlığın aradan qaldırılması və ya metodiki dəstəyin göstərilməsi Azərbaycan Respublikasının Vergilər Nazirliyinin proqram təminatı vasitəsi ilə və Çağrı Mərkəzi (195-1) vasitəsi ilə həyata keçirilir.

3.5. Elektron xidmətin göstərilməsi üzrə mübahisələr: İstifadəçi elektron xidmətlə bağlı onu razı salmayan istənilən məsələ barədə inzibati qaydada yuxarı səlahiyyətli orqana (vəzifəli şəxsə) və məhkəməyə şikayət edə bilər. Şikayətin verilməsi və baxılması qaydası aşağıdakı kimidir:

3.5.1. İstifadəçinin şikayət etmək hüququ haqqında məlumat: Elektron xidmətin göstərilməsindən və ya elektron xidmətin göstərilməsindən imtinadan qanunvericiliyə uyğun olaraq inzibati qaydada və məhkəməyə şikayət verilə bilər;

3.5.2. Şikayətin əsaslandırılması və baxılması üçün lazım olan informasiya: İnzibati şikayətin forması "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununun 74-cü maddəsinə uyğun olmalıdır;

3.5.3. Şikayətin baxılma müddəti: Şikayət inzibati orqana verildikdə, şikayətə "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanunun 78-ci maddəsinə əsasən, 1 ay müddətinə baxılır. Məhkəməyə verilən şikayətə Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsi ilə müəyyən edilmiş qaydada baxılır.